# Milli qiymətləndirmə tədqiqatları zamanı istifadə olunan qiymətləndirmə vasitələri

## Riyaziyyat
## IV sinif

**1. 1 dm uzunluğunda parçanı nə qədər uzatmaq lazımdır ki, alınmış parçanın uzunluğu 1 dm 5 sm olsun?**

A) 5 sm B) 5 dm C) 2 sm D) 3 sm

2**. Qarajda 20 maşın vardı. 5 maşın gəldi və 7 maşın getdi. Qarajda neçə maşın oldu?**

A) 25 B)18 C) 17 D) 16

**3. Velosipedçi 240 m yol getdikdən sonra məlum oldu ki, o yolun yarısını gedib. Yolun uzunluğu nə qədərdir?**

A) 480 m B) 120 m C) 300 m D) 400 m

**4. Velosipedçi 3 saata 36 km yol gedirsə, sürəti velosipedçinin sürətindən 6 dəfə böyük olan motosikletçi 4 saata nə qədər yol gedər?**

A) 288 km B) 72 km
C)18 km D)108 km

5. **Sağıcı 1 inəkdən 150 litr, o biri inəkdən 130 litr süd sağdı. O, sağılmış südü 7 litrlik bidonlara doldurdu. Neçə bidon lazım oldu?**

A) 40 B) 50 C) 60 D) 30

## Riyaziyyat
## IX sinif

**1. y= 2x + 1 düz xəttinin bucaq əmsalını tapın.**
A) 2 B) -2 C) 1
D) -1 E) $\frac{1}{2}$

**2. Kəsri ixtisar edin :** $\frac{x^2-9x+18}{9-x^2}$

A) $\frac{x-6}{3-x}$ B) $\frac{x+6}{9-x}$ C) $\frac{6-x}{x+3}$
D) $\frac{x+9}{9-x}$ E) $\frac{x-9}{x-3}$

**3. Vuruğu kök işarəsi altından çıxarın:** $\sqrt{75x^3y^6}$ **x > 0, y > 0**

A) $5x\sqrt{x\ y^6}$ B) $5xy^3\sqrt{3x}$

C) $5x^3y^6\sqrt{3}$ D) $5x^2y^3\sqrt{x\ y^6}$

E) $5x^2y^3$

**4. DƏNİZ sözü 12537 – isə, DƏRƏ sözünü hansı ədəd ifadə edir?**

A) 1232 B) 1272 C) 1282

D)1537 E) 1253

**5. A(3;1) və B(a;a) nöqtələri arasındakı məsafə 2 - ə bərabərdirsə, a – nın ala biləcəyi qiymətlərin cəmini tapın.**

A) 3 B) -4 C) 0

D) -3 E) 4

## Ana dili
## IV sinif

**1. Hansı cümlədə ikinci dərəcəli üzv yoxdur?**

A) Nənəm maraqlı nağıllar danışır. B) Orxan həyətdə oynayırdı.
C) Dəniz dalğalanır. D) Aybəniz “5” aldı.

2. **Gəncəni seyr etməkdən doymaq olmur” cümləsində “Gəncəni” sözü ismin hansı halındadır?**

A)adlıq B)yiyəlik C)təsirlik D)yönlük

3. **“Dəmir qapı” söz birləşməsinin hər iki tərəfi hansı nitq hissəsi ilə ifadə olunmuşdur?**

A) isim, fel B) isim, isim
C) isim, sifət D) əvəzlik, isim

4. **Neçə sözdə qalın saitlərin ahəngi var?**
Sarı, məktəbli, səadət, siyasət, Sona, bacı, hünər, arxalı, kolluq

A) 1 B) 2 C) 3 D) 5

5. **Daşaltı yasaqlığı (mətn)**

Təəssüf ki, Qarabağımızın dilbər guşələrindən biri olan Şuşa və Daşaltı qoruğu indi düşmən tapdağı altındadır. Daşaltı yasaqlığı 1988-ci il 24 noyabrda yaradılmışdı. Yasaqlıq “Topxana” adlanan sahədəki meşə fondunun və Şuşa ətrafı torpaq sahələrinin hesabına yaradılmışdı. Topxana Qarabağın ən böyük, ən ulu təbiət və tarix abidəsidir. Topxana dünyanın

nadir çiçəyi hesab edilən Xarı bülbüllə, saysız-hesabsız, min bir dərdin dərmanı olan digər çiçəklərlə, bitkilərlə zəngindir. Yasaqlığın ərazisi zəngin meşə, kol və ot bitkilərinin təbii muzeyidir. Qarabağ müharibəsi əslindəTopxanadan başlanmışdır.

Nadir təbiət abidələrini məhv edib yerində zavod tikmək istəyən ermənilərə qarşı xalqın hiddəti coşdu. Xalq ayağa qalxdı. Lakin təəssüf ki, düşmən öz himayədarlarının köməyi nəticəsində nəinki Qarabağı, hətta ətraf rayonları da işğal etdi.

**1.Mətnə əsasən "Daşaltı yasaqlığı" söz birləşməsində ikinci tərəfi hansı sözlə əvəz etmək olar?**

A) qoruğu B) bağı C) muzeyi D) xiyabanı

**2.Mətnə əsasən nadir çiçək hesab olunan bitki hansıdır ?**

A) kəklikotu B) qızılgül C) bənövşə D) xarı bülbül

**3.Mətnə əsasən "Daşaltı Yasaqlığı" harada yerləşir ?**

A) Qubada B) Qəbələdə C) Şuşada D) Şirvanda

**4.Mətnə əsasən təbiət abidələrini məhv edib, yerində zavod tikmək istəyən kimlərdir ?**

A) azərbaycanlılar B) ruslar C) gürcülər D) ermənilər

## Ana dili
## IX sinif

**1. "Yaxınlaşıb baxmaq" birləşməsi aşağıdakılardan hansına aiddir və tərəfləri arasındakı əlaqə növü hansıdır?**

A) məsdər tərkibi, uzlaşma B) məsdər tərkibi, idarə
C) feli bağlama tərkibi, yanaşma D) məsdər tərkibi, yanaşma

**2. Aşağıdakı cümlə hansı sxemə uyğundur?**

" Bir az da belə sürsəm, atı çatladaram", -deyə düşündü və cilovu dartdı.
A) M:"V",-m
B) M:"V?-m
C) "V",-m
D) M:"V?"

**3. "Könlüm yaz istəyir, tale qış deyir" tabesiz mürəkkəb cümləsində hansı məna əlaqəsi vardır?**

A) zaman B) qarşılaşdırma
C) bölüşdürmə D) səbəb-nəticə

**4. ”Qəm olmasa, adam sevincin qədrini bilməz “cümləsinin növünü müəyyənləşdirin.**

A) mübtəda budaq cümləsi
B) xəbər budaq cümləsi
C) təyin budaq cümləsi
D) şərt budaq cümləsi

**5. Bir damcı su ilə öz dostluğunu bildirir**

Kənd xırmanına od düşmüşdü. Kəndlilər evlərində olan bütün vedrə, qazan və qab-qacağı su ilə doldurub yanğının üzərinə tökür, onu söndürməyə çalışırdılar.

Bu vaxt bir sərçə xırmanın üzərində dövrə vurub dimdiyində saxladığı saman çöpünü yanğının üstünə atdı. Bunu görən kəndlilər sərçədən soruşdular:

- Nə fikirdə olduğunu başa düşdük, amma sənin atdığın bu çöplə yanğın böyüyüb genişlənməz?!

Sərçə dedi:

- Bəli, bilirəm. Amma mən çöpü atmaqla sizə öz düşmənçiliyimi bildirmək istəyirəm.

Bu vaxt bir sığırçın kəndlilərin başı üstündən o tərəf, bu tərəfə uçaraq ağzında gətirdiyi bir damla suyu yanğının üstünə atdı.

Buna təəccüb edən kəndlilər sığırçından:

- Bir damcı su ilə belə güclü alovu söndürmək olarmı, – deyə soruşdular.

Sığırçın bunun cavabında dedi:

- Bilirəm ki olmaz, amma mən də bu bir damcı su ilə sizə öz dostluğumu bildirmək istəyirəm.

**1. Mətnə əsasən fikirləri ardıcıllıqla düzün:**

1. sığırçının bir damla su atması
2. sərçənin yanğına saman çöpü atması
3. xırmana düşən alovun kəndlilərin söndürməyə çalışması
4. sığırçının dostluğunun mənası

A) 4,3,1,2
B) 3,2,1,4
C) 2,4,3,1
D) 3,2,4,1

**2. Mətnə əsasən hansı cavab xalqın kollektiv mübarizəsinin göstəricisi sayıla bilər?**

A) sərçənin hərəkətlərinə etirazlarını
B) yanğını söndürməyə cəhd etmələri
C) sığırçının su gətirməsi
D) sığırçının öz dostluğunu bəyan etməsi

**3. Mətnə əsaslanaraq doğru fikri seçin:**

A) Sərçənin və sığırçının əməllərində fərq yoxdur.
B) Sığırçın bir damcı su ilə müsbət münasibətini bildirir.
C) Kəndlilər sərçəni məzəmmət edirlər.
D) Həm kəndlilər, həm də quşlar yanğını söndürmək istəmirlər.

**4. Mətnə əsasən bu quşlardan hansının əməli insanlar tərəfindən yaxşı qarşılanır.**

Cavab ______________________________

**5. Mətnə əsasən sığırçının xeyirxah işini göstər.**
1. Yanğını söndürməyə cəhd göstər.
2. Ziyanvericiləri məhv edir.
3. Onun üstünə atır.
4. Quşların hər ikisi bədxah iş görür.

## Şagird sorğusu
## IX sinif

**1. Sizin evinizdə kitablar neçə rəfdə yerləşir?** ***( Adətən 1 rəfdə təxminən 40 kitab yerləşir)***

*( Yalnız bir cavabı qeyd et)*

a) Kitabımız yoxdur. ☐
b) 1 rəfdən az ☐
c) 1 rəfdə ☐
d) 2 rəfdə ☐
e) 3-5 rəfdə ☐
f) 5 rəfdən çox ☐

**2. Normal dərs günlərində dərsdən əvvəl və ya sonra aşağıda göstərilən işlərə nə qədər vaxt ayırırsan?**

*(Hər bir bənd üçün yalnız bir cavabı qeyd et)*

| | vaxt ayırmıram | 1 saatdan az | 1-2 saat | 3-5 saat | 5 saatdan çox |
|---|---|---|---|---|---|
| a) Kompüter oyunları oynayıram. | ☐ | ☐ | ☐ | ☐ | ☐ |
| b) Dostlarımla birlikdə məktəbdən kənar bir yerdə söhbət edir və ya oynayıram. | ☐ | ☐ | ☐ | ☐ | ☐ |
| c) Bədii kitab oxuyuram. | ☐ | ☐ | ☐ | ☐ | ☐ |
| d) Musiqiyə qulaq asıram. | ☐ | ☐ | ☐ | ☐ | ☐ |
| e) İnternet saytlarına baxıram. | ☐ | ☐ | ☐ | ☐ | ☐ |
| f) Dərslərimi hazırlayıram. | ☐ | ☐ | ☐ | ☐ | ☐ |
| g) İdmanla məşğul oluram. | ☐ | ☐ | ☐ | ☐ | ☐ |
| h) Televizora baxıram. | ☐ | ☐ | ☐ | ☐ | ☐ |
| i) Dostlarımla telefon, yaxud da internet | ☐ | ☐ | ☐ | ☐ | ☐ |

| | | | | | |
|---|---|---|---|---|---|
| vasitəsilə ünsiyyətdə oluram. | | | | | |

**3. Ana dili dərsində aşağıda qeyd edilənlər baş verirmi?**

*(Hər bir bənd üçün yalnız bir cavabı qeyd et)*

| | Heç vaxt | Bəzən | Həmişə |
|---|---|---|---|
| a) Müəllimimiz sinifdə bizim dərslərimizi necə öyrənməyimizlə maraqlanır. | ☐ | ☐ | ☐ |
| b) Müəllim dərsi uşaqlar başa düşənə qədər izah edir. | ☐ | ☐ | ☐ |
| c) Müəllim sinfi sakitləşdirməyə çox vaxt sərf edir. | ☐ | ☐ | ☐ |
| d) Dərslərimizdə bir neçə şagird lövhəyə çıxarılır və keçdiyimiz mövzunu izah edir. | ☐ | ☐ | ☐ |
| e) Müəllimimiz bizi tapşırıqları yerinə yetirmək üçün həvəsləndirir. | ☐ | ☐ | ☐ |
| f) Verilmiş mövzuya esse yazırıq. | ☐ | ☐ | ☐ |
| g) Dərslərimizdə testlərdən istifadə olunur. | ☐ | ☐ | ☐ |
| h) Dərslərdə ev tapşırıqları yoxlanılır. | ☐ | ☐ | ☐ |
| i) Dərslərdə öyrəndiklərimiz gündəlik həyatla əlaqələndirilir.<br>j) Müxtəlif mətnləri məna və üslub baxımından təhlil edirik. | ☐ | ☐ | ☐ |

**4.Riyaziyyat dərsində hansı mənbələrdən istifadə etmək imkanınız var?**

*(Hər bir bənd üçün yalnız bir cavabı qeyd et)*

| | | var | yoxdur |
|---|---|---|---|
| | a) şəxsi dərslikdən | ☐ | ☐ |
| | b) iş dəftərindən | ☐ | ☐ |
| | c) kalkulyatordan | ☐ | ☐ |
| | d) kompüterdən | ☐ | ☐ |
| | e) riyaziyyatdan məsələ kitabından | ☐ | ☐ |

**5. Aşağıdakı fikirlərlə nə dərəcədə razısan?**

*(Hər bir bənd üçün yalnız bir cavabı qeyd et)*

| | Heç razı deyiləm | Razı deyiləm | Razıyam | Çox razıyam |
|---|---|---|---|---|
| a) Riyazi biliklərim iş tapmaqda mənə kömək edəcək. | ☐ | ☐ | ☐ | ☐ |
| b) Riyazi biliklərim ali məktəbə daxil olmağa kömək edəcək. | ☐ | ☐ | ☐ | ☐ |

# Şagird sorğusu
# IX sinif

**1. Evinizdə aşağıdakılardan HANSI var?**

*(Hər bir bənd üçün yalnız bir cavabı qeyd et)*

| | Var | Yoxdur |
|---|---|---|
| a) şəxsi otağın | ☐ | ☐ |
| b) dərs oxumaq üçün sakit yer | ☐ | ☐ |
| c) şəxsi dərsliklər | ☐ | ☐ |
| d) kompüter | ☐ | ☐ |
| e) kalkulyator | ☐ | ☐ |

**2. Boş vaxtlarında ADƏTƏN nə edirsən?** *(dərsə hazırlaşdığın vaxtdan başqa)*

*(Hər bir bənd üçün yalnız bir cavabı qed et)*

| | Hə | Yox |
|---|---|---|
| a) Kitab oxuyuram. | ☐ | ☐ |
| b) Televizora baxıram. | ☐ | ☐ |
| c) Musiqiyə qulaq asıram. | ☐ | ☐ |
| d) Kompüterdə oynayıram. | ☐ | ☐ |
| e) İdmanla məşğul oluram. | ☐ | ☐ |
| f) Yoldaşlarımla oynayıram. | ☐ | ☐ |
| g) Ailə işlərinə kömək edirəm. | ☐ | ☐ |
| h) Pul qazanmaq üçün başqa yerdə işləyirəm. | ☐ | ☐ |

**3. ADƏTƏN sən dərslərini kimin köməyi ilə hazırlayırsan?**

*( Yalnız bir cavabı qeyd et)*

a) atamın ☐
b) anamın ☐
c) böyük qardaş və bacımın ☐
d) sinif yoldaşlarımın ☐
e) müəllimin ☐
f) heç kimin ☐

**4. Ana dili dərsini nə dərəcədə xoşlayırsan?**

*( Yalnız bir cavabı qeyd et)*

| Heç xoşlamıram | Xoşlamıram | Xoşlayıram | Çox xoşlayıram |
|---|---|---|---|
| ☐ | ☐ | ☐ | ☐ |

**5. Riyaziyyatdan verilən tapşırıqları məktəbdə yerinə yetirmək lazımdır, çünki**

*( Yalnız bir cavabı qeyd et )*

| | Heç razı deyiləm | Razı deyiləm | Razıyam | Tamamilə razıyam |
|---|---|---|---|---|
| evdə onu yerinə yetirmək çox çətindir. | ☐ | ☐ | ☐ | ☐ |

## Valideyn üçün anket sorğusu

**1. Təhsiliniz:** *(yalnız **bir** cavabı qeyd edin.)*

a) Ümumi orta təhsil ☐
b) Orta ixtisas təhsili (texnikum) ☐
c) Ali təhsil (Universitet, İnstitut) ☐
d) Elmlər doktoru ya namizədi (alimlik dərəcəniz) ☐
e) Heç biri ☐

`

**2. Övladınız dərsliklərdən başqa daha hansı mənbə və vəsaitlərdən istifadə edir?**

| | Bəli | Xeyr |
|---|---|---|
| a) Uşaqlar üçün bədii ədəbiyyat | ☐ | ☐ |
| b) Uşaq ensiklopediyaları və lüğətləri | ☐ | ☐ |
| c) Xəritə və ya qlobus | ☐ | ☐ |
| d) Öyrədici kompüter proqramları | ☐ | ☐ |
| e) İnternet | ☐ | ☐ |

**3. Övladınızın oxuduğu məktəbi hansı meyara görə seçmisiniz?**
*Yalnız **bir** cavabı qeyd edin.*

a) Evimizə yaxın olduğuna görə ☐

b) Məktəbdə işləyən müəllimləri tanıdığıma görə ☐

c) Eşitdiyimə görə, həmin məktəbin verdiyi təhsilin səviyyəsi yüksək olduğuna görə ☐

d) Başqa səbəbə görə ☐

**4. Siz aşağıdakılarla nə dərəcədə razısınız?**

| | Razıyam | Razı deyiləm |
|---|---|---|
| a) Uşağımın müəllimləri məni vaxtında onun nailiyyətləri və problemləri barədə məlumatlandırırlar. | ☐ | ☐ |
| b) Məktəbdəki nizam-intizamın səviyyəsi məni tamamilə qane edir. | ☐ | ☐ |
| c) Məktəb uşağımı bütün vacib dərslik və vəsaitlərlə təmin edir. | ☐ | ☐ |
| d) Məktəbdə uşaqların qiymətləndirilməsi tamamilə şəffaf və ədalətli aparılır. | ☐ | ☐ |
| e) Məktəbdə qiymətləndirmə uşaqların bilik səviyyəsi ilə yox, başqa meyarlarla təyin olunur | ☐ | ☐ |
| f) Məktəbin uşağıma verdiyi bilik səviyyəsi məni əsasən qane edir. | ☐ | ☐ |

g) Məktəbin verdiyi biliklərin səviyyəsi aşağı olduğuna görə məktəbdənkənar əlavə dərslərə ehtiyac yaranır. ☐ ☐

## Müəllim üçün anket sorğusu

**1. Təhsilinz ?**

**Aşağıdakılardan hansı sizə aiddir?**

*Yalnız **bir** cavabı qeyd edin.*

a)orta ixtisas ☐

b)ali pedaqoji ☐

c)qeyri-pedaqoji ☐

**2. Aşağıdakılar hansı dərəcədə sizin dərslərinizə aiddir?**

***Mənim dərslərimdə şagirdlər:***

*( Hər **bənd üçün bir cavabı** qeyd edin)*

| | Heç vaxt | Bəzən | Bir çox dərsdə | Hər dərsdə |
|---|---|---|---|---|
| a) Mənim müdaxiləm olmadan işləyirlər. | ☐ | ☐ | ☐ | ☐ |
| b) Mənim köməyimdən istifadə edərək işləyirlər. | ☐ | ☐ | ☐ | ☐ |

**3. Dərslərinizdə şagirdlərlə müntəzəm olaraq hansı təlim fəaliyyətlərini həyata keçirirsiniz?**

*(Hər **bənd üçün bir cavabı** qeyd edin.)*

| | Heç vaxt | Bəzən | Bir çox dərsdə | Hər dərsdə |
|---|---|---|---|---|
| a) təriflərin və qaydaların əzbərlənməsini; | ☐ | ☐ | ☐ | ☐ |
| b) yeni dərsdən sonra suallara cavab verməsini; | ☐ | ☐ | ☐ | ☐ |
| c) praktik çalışmaların yerinə yetirilməsini; | ☐ | ☐ | ☐ | ☐ |
| d) layihələrin yerinə yetirilməsini; | ☐ | ☐ | ☐ | ☐ |
| e) keçilən mövzuların gündəlik həyatla əlaqələndirilməsini; | ☐ | ☐ | ☐ | ☐ |
| f) ev tapşırıqlarının təhlilini və səhvlərindən nəticə çıxarmağı. | ☐ | ☐ | ☐ | ☐ |

**4. ANA DILI dərsində aşağıda qeyd edilən fəaliyyət növlərindən nə dərəcədə istifadə edirsiniz?**

*(Hər **bənd üçün bir cavabı** qeyd edin.)*

| | heç vaxt | bəzən | bir çox dərsdə | hər dərsdə |
|---|---|---|---|---|
| a) Şagirdlər imla yazırlar. | ☐ | ☐ | ☐ | ☐ |
| b) Şagirdlər tanımadıqları bədii mətni oxuyaraq onun əsasında ifadə yazırlar. | ☐ | ☐ | ☐ | ☐ |
| a) Şagirdlər tanımadıqları qeyri-bədii mətni oxuyaraq onun əsasında ifadə yazırlar. | ☐ | ☐ | ☐ | ☐ |
| b) Şagirdlər tanımadıqları bədii mətni oxuyaraq ona aid sualları cavablandırırlar. | ☐ | ☐ | ☐ | ☐ |
| c) Şagirdlər tanımadıqları qeyri-bədii mətni oxuyaraq ona aid sualları cavablandırırlar. | ☐ | ☐ | ☐ | ☐ |
| d) Şagirdlər verilmiş şəkil əsasında inşa yazırlar. | ☐ | ☐ | ☐ | ☐ |
| e) Şagirdlər verilmiş mövzu əsasında inşa yazırlar. | ☐ | ☐ | ☐ | ☐ |
| f) Şagirdlər sərbəst mövzu əsasında inşa yazırlar. | ☐ | ☐ | ☐ | ☐ |

**5. Riyaziyyatdan ev tapşırıqlarının yoxlanılmasına nə qədər vaxt sərf edirsiniz?**

*(Yalnız **bir** cavabı qeyd edin.)*

a) Mən ev tapşırıqlarını yoxlamıram. ☐

b) 5 dəqiqədən az ☐

c) 5-10 dəqiqə ☐

d) 10 dəqiqədən çox ☐

## Məktəb direktoru üçün anket sorğusu

1. Məktəbinizdə 4-cü sinifdə oxuyan şagirdlərin ümumi sayı nə qədərdir?

2. Məktəbdə 9-cu sinifdə oxuyan şagirdlərin ümumi sayı nə qədərdir?

3.Məktəbdə mövcud olan kompüterlərdən neçəsi tədris üçün istifadə olunur?

4. Bu kompüterlərdən təxminən neçəsi İnternetə qoşula bilir?

5.**Məktəbinizdə tədrisin imkanlarının genişlənməsinə aşağıdakılardan hər-hansı biri mane olurmu?**

*(Zəhmət olmasa, hər bir sırada yalnız bir cavabı işarələyin)*

| | *Tamamilə yox* | *Çox az* | *Müəyyən qədər* | *Çox* |
|---|---|---|---|---|
| Bacarıqlı müəllimlərin çatışmaması; | ☐ | ☐ | ☐ | ☐ |
| bacarıqlı riyaziyyat müəllimlərinin çatışmaması; | ☐ | ☐ | ☐ | ☐ |
| bacarıqlı Azərbaycan dili müəllimlərinin olmaması; | ☐ | ☐ | ☐ | ☐ |
| tədris materiallarının çatışmaması və ya tələblərə uyğun olmaması (məsələn, dərsliklər); | ☐ | ☐ | ☐ | ☐ |
| tədris üçün kompüterlərin çatışmaması və ya tələblərə uyğun olmaması; | ☐ | ☐ | ☐ | ☐ |
| internet əlaqəsinin çatışmaması və ya tələblərə uyğun olmaması; | ☐ | ☐ | ☐ | ☐ |
| tədris üçün kompüter proqram təminatının çatışmaması və ya tələblərə uyğun olmaması; | ☐ | ☐ | ☐ | ☐ |
| kitabxana materiallarının çatışmaması və ya tələblərə uyğun olmaması; | ☐ | ☐ | ☐ | ☐ |
| təlimin texniki vasitələrinin çatışmaması və ya tələblərə uyğun olmaması. | ☐ | ☐ | ☐ | ☐ |

6. **Məktəbinizdə müəllimlərin fəaliyyətinin monitorinqi üçün aşağıda göstərilən hansı metodlardan istifadə olunub?**

*(Zəhmət olmasa, yalnız bir cavabı qeyd edin)*

| | *Bəli* | *Xeyr* |
|---|---|---|
| a) Şagird nailiyyətlərinin qiymətləndirilməsi və yoxlanılması; | ☐ | ☐ |
| b) müəllimlərin həmkarlarının təcrübəsi ilə (dərs planları, qiymətləndirmə metodları, açıq dərslər) tanış edilməsi; | ☐ | ☐ |
| c) direktor tərəfindən dərslərin müşahidəsi; | ☐ | ☐ |
| d) məktəbdən kənar fəaliyyət göstərən inspektorlar və digər şəxslər tərəfindən dərslərin müşahidəsi. | ☐ | ☐ |